İsmayılova Əzizə

# CÜRCİ ZEYDANIN ƏRƏB XİLAFƏTİNİN MUSİQİ MƏDƏNİYYƏTİ BARƏDƏ FİKİRLƏRİ

Tanınmış ərəb yazıçısı, tarixçi və ədəbiyyatşünas, publisist və nəhayət, islamın meydana gəlməsindən ta XVII əsrə qədər ərəb islam tarixinin ən qlobal tarixi hadisələrinə 22 tarixi roman həsr etmiş Cürci Zeydan (1861-1914) özündən sonra çox zəngin, olduqca oxunaqlı tədqiqat əsərləri qoyub getmişdir.

XIX əsrin 60-cı illərində Beyrutda dünyaya göz açan Cürci Zeydanın gənclik illəri əsasən Livanda keçmiş və o, 1886-cı ildən özünə münasib iş axtarmaq üçün Qahirəyə köçərək orada məskunlaşmış və həmin dövrdən ta vəfatına qədər taleyini ədəbiyyat və publisistikaya bağlamışdır. Cürci Zeydan ərəb ədəbi mühitində əsasən tarixi romanlar müəllifi kimi tanınsa da, onun qələmindən müxtəlif yönümlü tarixi əsərlər çıxmış və o, bir publisist kimi də şöhrət tapmışdır. Bu ədibin 1892-ci ildə əsasını qoyduğu “əl-Hilal” (Aypara) adlı jurnal bu gün də mütəmadi olaraq çap olunur və biz deyərdik ki, bu ədəbi-bədii jurnal dünya mətbuatı tarixində ən uzun ömürlü ədəbi bir orqandır.

Cürci Zeydanın 1911-1914-cü illərdə Qahirədə çap etdirdiyi dördcildlik “Tarixu ədəbi-l-ərəbi” (“Ərəb ədəbiyyatı tarixi”) əsəri ərəb ədəbiyyatının keçdiyi inkişaf yolu barədə ən mötəbər tədqiqat əsəri hesab olunur.

Cürci Zeydanın adını tarixdə əbədiləşdirən bir tədqiqat əsərinin də adını çəkmək olar. Bu onun 1901-1905-ci illərdə Qahirədə çap etdirdiyi beşcildlik “Tarixu təmədduni-l-islami” (“İslam mədəniyyəti tarixi”) adlı tədqiqat əsəridir. Bu beşcildliyi ingilis dilinə tərcümə edən ingilis alimi Morqolius onu belə dəyərləndirmişdir: “Mənim fikrimcə bu tədqiqat əsəri ərəblərin qədim xilafət tarixinə həsr olunmuş ən dərin tədqiqat əsəridir”. (1,7)

Ərəb və Avropa tarixçilərinin məziyyətlərini yüksək dəyərləndirdikləri bu beşcildlikdə ərəb-islam mədəniyyətinin bütün sahələri çox dəqiqliklə araşdırılmışdır. Orta əsr ərəb tarixçilərinin və məşhur ərəb filoloqlarının əsərlərindən bəhrələnməklə yazılan bu zəngin mənəviyyat xəzinəsində Cürci Zeydan öz oxucusunu ərəb islam mədəniyyətinin necə deyərlər A-dan Y-yə qədər bütün çalarları, növləri ilə tanış edir. Bu zəngin mədəniyyət nümunələrinin sırasında isə onun ərəblərin musiqi mədəniyyəti barədə söylədiyi fikirlər xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, dünya xalqlarının mənəvi dünyasında şerin, poeziyanın oynadığı rol ölçüyə gəlməz bir dəyərə malikdir. Belə ki, ilk misrasından son misrasına qədər insanın qəlbini riqqətə gətirən hər bir şeir isə mahnıya, nəğməyə çevriləndə, o gözəl səsli bir müğənninin ifasında xoş bir ritmlə, avazla oxunanda həmin mahnını daha da rövnəqləndirən musiqi alətlərinin, çalğıçıların məharətlə ifa etdikləri simli, simsiz çalğı və nəfəs alətlərinin müşayiəti ilə daha da gözəlləşir və ürəyə, qəlbə daha yatımlı olur, zövqə, hissə ruh verən bir mənəvi qidaya çevrilir.

Bu mənada “İslam mədəniyyəti tarixi” əsərində islamda musiqi mədəniyyəti barədəki fikirlərində Cürci Zeydan şeirlə musiqinin vəhdəti məsələsini ön plana çəkərək bu iki komponentin bir-biri ilə əlaqəsinə ötəri toxunduqdan sonra ərəblərdə musiqinin yaranmasını ilkin olaraq ordu quruculuğu ilə bağlayır və göstərir ki, ərəblər qədimlərdə musiqidən ilkin olaraq ordunun yaranması və döyüşə hazırlanması zamanı istifadə etmişlər. O, “İslam mədəniyyəti tarixi”nin birinci cildində yazırdı ki, ərəblərdə ordunun təşəkkülü zamanı müsiqidən istifadənin kökü qədim zamanlara qayıdır və o zaman ordunun qarşısında “nəğmə” (gına) və “tərənnüm” (nəşid) oxuyarmışlar və bu mahnılar “tabl” (dəf) vasitəsilə müşayiət olunarmış.

Sədrul İslam dövründə isə bu alətə “əbmaq” və “tubul” (dəflər) əlavə olunubmuş (2, 192).

Misirli ədib sonra qeyd edir ki, ərəblər islamiyyətdən sonra iranlılar və rumlarla olan təmasları nəticəsində bu xalqlardan müsbət, dəqiq elmlərdən əvvəl musiqi mədəniyyətlərini əxz etməli olmuşlar (2, s 193).

Şeir və musiqinin vəhdəti, onların birgə yaratdığı harmoniya ərəblərin Cahiliyyət dövründə qeyri-professional şəkildə mövcud olmuşdur. Belə ki, qəbiləarası döyüşlərdə öldürülən cəsur, qorxmaz igidlərə yazılan ağılar yas mərasimlərində xüsusi bir intonasiya ilə musiqisiz qadınlar tərəfindən ifa olunurdu. Biz buna misal olaraq əl-Xənsanın qəbilə davalarında öldürülən qardaşları Əmr və Saxra ünvanladığı mərsiyələri qeyd edə bilərik. Həmin ağıları əl-Xənsa xüsusi bir ritmlə hüzr yerlərində oxuyarmış.

Cürci Zeydanın yazmasına görə ərəb dünyasında ərəb dilində ilk mahnı oxuyan müğənni Səid ibn Meshac adlı bir məkkəli kölə olmuşdur. Bu kölə Əməvilərin hicrətin 1-ci əsrinin sonlarına yaxın Məkkeyi-mükərrəməni mühasirə etdikləri zaman şəhərin təmir işlərində çalışan bir iranlı ustanın fars dilində həzin bir səslə bir mahnı oxuduğunu eşidir və həmin ustadan bu fars mahnısını ona öyrətməyi xahiş edir və həmin mahnını farsca züm-zümə edir və bir müddətdən sonra o bu fars mahnısını sərbəst şəkildə oxuyur. Bundan sonra o, İrana və Şama gedərək fars və rum dillərində bir neçə mahnı öyrənir və beləliklə də o, bir müddətdən sonra bu mahnıların motivləri əsasında özünün ərəb dilində qoşduğu şeirlərə mahnılar bəstələyir və nəticədə ərəb dilində iran və rum mahnılarının ritmləri əsasında sintez olunmuş mahnılar yaranır. Bu Əməvi xəlifəsi Abdullah bn Zübeyrin hakimiyyəti illərində baş vermişdir (3, 318).

Beləliklə Səid bn Meshac tarixə ilk ərəb müğənni və bəstəkarı kimi daxil olur və bu dövrdə yetişən müğənnilərin bir çoxu Səidin yolu ilə gedərək ərəb dilində yeni-yeni mahnılar bəstələyirlər və ərəb islam musiqi mədəniyyətinin ilkin nümayəndələri kimi məşhurlaşırlar.

Cürci Zeydan “İslam mədəniyyəti tarixi”nin üçüncü cildində Əməvilərin sonu və Abbasilərin ilk çağlarında yetişən belə müğənni-bəstəkarlardan Sürayə, Gariz, Mabel, Hakam əl-Vadi, Ömər əl-Vadi, Seyat kimi kişi müğənnilərinin, Abbasilər dövrünün isə məşhur müğənni-bəstəkarları, ata-oğul İbrahim və İshaq əl- Mosulilərin adlarını xüsusi qeyd edir.

Əməvilərin və ilkin Abbasilərin dövründə yetişən qadın müğənnilər barədə də ətraflı məlumat verən Cürci Zeydan bu müğənnilərdən Cəmilə, Həbabə (bu müğənni barədə irəlidə daha geniş məlumat verəcəyik), Səlamə, Uglulə kimi tanınmış bir sira zərif cinsin nümayəndələrinin xəlifələrin kef, eyş-işrət məclislərində dinləyicilərinin öz yanıqlı nəğmələri ilə qəlblərini riqqətə gətirdiklərini qeyd edir (3, 320).

Bir mənalı şəkildə qeyd olunmalıdır ki, ərəb xilafətinin mövcudluğu zamanı həm Əməvilərin, həm Abbasilərin müvafiq olaraq Dəməşq və Bağdaddakı xəlifə sarayları daima şairlər və müğənnilərin cəmləşdikləri məkanlar olmuşdur. Ömər ibn Əbdüləziz istisna olunmaqla Əməvi xəlifələrinin bir qrupu, ilkin Abbasi xəlifələrinin isə demək olar ki, hamısı öz məclislərini həmişə şairlərin, müğənnilərin əhatəsində keçirmişlər. Dövrün tanınmış şairlərindən əl-Əxtəlin, Cəririn, Fərəzdəqin əməvilər, Başşarın, Əbu Nuvasın, Əbul Ətahiyənin, əl-Buhturi, Dəhhak və sairlərinin isə Abbasi xəlifələrinin yanında məqamları yüksək olmuşdur. Həmin məqamlara dövrün yuxarıda adlarını xatırlatdığımız müğənnilər pleyadası da yetişmişdilər.

Cürci Zeydanın "Islam mədəniyyəti tarixi"nin 5-ci cildində müğənnilərin bəzi xəlifələr yanında mövqelərinin, hörmət və izzətlərinin pik həddə çatdığı daha geniş işıqlandırılır və göstərilir ki, xəlifələr bəzi müğənnilərə, şairlərə verdikləri hədiyyə, bəxşiş və mükafatlardan qat-qat çox sərvət, daş-qaş, ləl-cəvahirat verirlərmiş. Xüsusilə, bu müğənni zərif cinsdən olardısa onda xilafəti həmin xəlifədən daha çox o qadın idarə edirmiş. O, nəinki özünün opekunu olan bu xəlifə ilə intim hisslərə girir, hətta bu xəlifənin necə deyərlər cilovunu əlində möhkəm saxlayaraq dövləti vəzifələrə münasib bildiyi adamları əyləşdirərmiş.
Cürci Zeydan tədqiqatının 5-ci cildində Əməvi xəlifəsi Yəzid ibn Əbdülməliklə qadın müğənni Həbabə arasında olan sevgi-məhəbbət macərası haqqında ətraflı məlumat verir. O, Həbabənin xəlifənin cilovunu necə oğurlaması barədə orta əsrlərin məşhur ərəb tarixçiləri İbn əl-Əsir, Əbul Fida, əl-Məsudi kimi şəxsiyyətlərinin əsərlərindən əxz etdiyi mötəbər faktlara əsaslanmaqla bu iki personajın həyat və sevgi macərasını bir qədər nağılvari, bir qədər də düşündürücü formada belə təhkiyə edir; Yəzid bn Əbdülməlik Əməvi xəlifələrinin içərisində özünün islama olan məhəbbəti və sədaqəti ilə Əməvilərin ən ədalətli xəlifəsi kimi səciyyələnən Ömər bn Əbdüləzizdən sonra hakimiyyətə gəlmişdi. Hakimiyyətə gəldiyi gündən əyyaşlığa qurşanan, şəraba-içkiyə hədsiz meyilli olan Yəzid islam dininə, ərəb xilafətinə, müsəlman ümmətinə Ömər bn Əbdüləziz qədər sədaqətli olması, dövlət qarşısındakı məsuliyyətini dərk etmədi. Onun ətrafında hər birinin incə, qəlbləri heyrətə gətirən səsləri ilə könülləri fəth edən iki gənc qız – Səlamə və Həbabə adlı mütribələr vardı. Yəzid günlərini xilafəti idarəçilikdən daha çox bu gənc qızlarla keçirirdi. O, bu qızlarla kef, əyləncə məclisləri qurur, nəşələnir, günlərini əyyaşlıqla keçirirdi. Burada bir haşiyə çıxıb demək lazımdır ki, çox təəssüf ki, bu cür xəlifələr xilafətə daxil olan millətlər, o cümlədən də biz azəzbaycanlılar tərəfindən "Əmir əl-muminin" (Möminlər əmiri) addlandırılmışdır.
Tədqiqat işində Cürci Zeydanın bu nağılvari təhkiyəsi davam etdikcə oxucu bu cütlüyün arasında gərgin məhəbbət motivlərinin olduğunu görür və hətta bu məhəbbətin Leyli və Məcnun sevgisindən də üstün olması qənaətinə gəlir. Təhkiyənin kulminasiya nöqtəsində isə adam hətta bu xəlifənin halına bir qədər acımalı da olur. Təhkiyəni davam etdirən Cürci Zeydan yazır: "Həbabə Yəzidin ağlını başından çıxarmışdı. O, xəlifənin qəlbinə o qədər hakim kəsilmişdi ki, hətta dövləti idarə edirdi. Kimi istəyirdi hakimiyyətə gətirir, kimi istəyirdi hakimiyyətdən uzaqlaşdırırdı. Yəzidin xilafətdə nə baş verməsindən xəbəri yox idi. Və məhz bir gün Yəzidin qardaşı Məsləmə onu məzəmmət edərək ona deyir: - Sən bu mənsəbə adil xəlifə Ömər bn Əbdüləzizdən sonra çatmısan. Amma əfsuslar olsun ki, dövlətin işlərini başlı başına buraxıb bu cariyə ilə məşğul olursan. Sənin qapında isə ölkənin müxtəlif yerlərindən gəlmiş çoxlu şikayətçilər var. Onlar qışqırıb bağırırlar. Sən isə onların şikayətlərini dinləmək iqtidarında deyilsən. Belə olarmı? Qardaşı Məsləmənin bu sözləri sanki Yəzidi ayıltdı. Qardaşına deyir: - Düz deyirsən! Ona görə də o, şərabdan əl çəkir. Həbabə ilə isə bir müddət görüşmür. Onun məlahətli səsinə qulaq asmaq istəmir.
...Yəzidin bu hərəkəti Həbabəni bərk mütəəssir edir və yaxın rəfiqələrinə tapşırır ki, Yəzid cümə namazına gedəndə ona xəbər versinlər... Günlərin birində Yəzid başının dəstəsi ilə cümə namazına gedəndə Həbabə qarşı tərəfdən əlində dəf çala-çala, nəğmə oxuya-oxuya onun önünə gəlir. Nəğmədə xəlifə məzəmmətlərə fikir verməməyə, sevgilini aramağa, həyatdan ləzzət almağa, könlünün istəklərini həyata keçirməyə çağırılırdı.
...Yəzid bu zaman qulamı çağırıb qardaşı Məsləmənin cümə namazına başçılıq etməsini xahiş edir, özü isə mütribəyə qoşulub Dəməşq ətrafında olan bir villada qız ilə yemək-içməyə yollanır. Onlar yeyib içirlər. Bu zaman mütribə əlində nar yeyirmiş. Yemək əsnasında qız çeçəyir, narın bir dənəsi onun nəfəs yoluna düşür. Yəzid nə qədər cəhd etsə də qızı boğulmaqdan xilas edə bilmir. Qız nəticədə boğulub ölür... Yəzid üç gün qızın meyidini heç kəsə vermir. Meyidi öpüb iyləməklə məşğul olur... Üç gündən sonra meyidin qoxunladığını görüb onun basdırılmasına icazə verir... Özü isə yalnız yarım ay yaşayır. Yarım aydan sonra o da vəfat edir. Adamlar onun meyidini mütribənin qəbrinin yanında dəfn edirlər" (1, s. 92-93).
Abbasi xəlifəsi Məhəmməd Əmin (xəl. dövrü 809-813) də özünün nəşə, kef, əylənmək məclislərində cariyə müğənnilərin xidmətlərindən daha çox faydalanırmış. "Xəlifələr musiqiyə olduqca böyük əhəmiyyət verirdilər"- deyən Cürci Zeydan xəlifələrin musiqi mədəniyyətini inkişaf etdirmək üçün özlərinin musiqiçiləri mukafatlandırmaqlarından əlavə onlar üçün yarışmalar, müsabiqələr təşkil etdiklərini də qeyd edir. Cürci Zeydan yazır ki, xəlifələr hətta kişi müğənnilərdən xoşladıqlarına cariyələr və kənizlər də bəxş etdiklərini qeyd edir. O, yazır ki, məşhur mügənni İbrahim Mosuli Bağdadda xəlifə Hadi, Əndəlusda isə müğənni Ziryab Əndəlus əmiri Əbdürrəhman bn Həkəm tərəfindən çox böyük var-dövlətlə mükafatlandırmışlar.
Araşdırmalarında islam musiqi mədəniyyətinin bu və ya digər dərəcədə inkişafı barədə demək olar ki, ilkin olaraq əhatəli məlumat verən Cürci Zeydan eyni zamanda Abbasilər dövründə mövcud olan musiqi alətlərinin təkmilləşdirilməsi barədə də aparılan təşəbbüslərə toxunur. O, yazır ki, ərəblər musiqi alətlərinin çoxunun iranlılar, nəbatilər, rumlular və hindlilərdən əxz etmələrinə baxmayaraq onların özləri də mövcud musiqi alətlərinə müəyyən əlavələr etməklə yanaşı, hətta özləri də yeni musiqi alətləri icad etmişdilər. Bu baxımdan o, Əbu Nəsr Farabinin X əsrdə icad etdiyi kanon musiqi alətinin adını çəkir və göstərir ki, Farabinin X əsrdə icad etdiyi bu alət bu gündə - yəni XX əsrin əvvəllərində də özünün ilkin formasını saxlayır. Cürci Zeydan udun islamilər tərəfindən təkmilləşdirilməsi barədə də mənbələrə söykənərək maraqlı fikirlər söyləyir. O, yazır ki, ud musiqi aləti ilk mərhələsində dörd simdən-teldən ibarət olmuşdur. Sonralar musiqiçi Ziryab ona bir tel də əlavə etmişdir. Bu tel qırmızı rəngdə olub və Ziryab onu o dörd telin mərkəzində yerləşdiribmiş. Bu udun mizrabı əvvəllər ağacdan olduğu halda Ziryab onu sonralar qara quşun lələyi ilə əvəz edibmiş.
Beləliklə, məqaləyə xülasə olaraq deməliyik ki, Cürci Zeydanın "İslam mədəniyyəti tarixi" əsəri ilkin islamilər dövrünün ədəbi-mədəni həyatının beş əsrlik mənzərəsini özünün bütün çalarları ilə əhatəli şəkildə əks etdirən olduqca zəngin bir eksponatlar müzeyidir. Və bu muzeydə oxucu-tamaşaçı zövqünü, mənəviyyatını pozitiv cərəyanlarla gücləndirə bilər.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Cürci Zeydan. Fərqanə gəlini (tarixi roman). Ərəb dilindən tərcümə edəniVilayət Cəfər. Ön söz Ziya Bünyadovundur. Bakı, Gənclik, 1996.
Araslı E. Джирджи Зейдан и его исторические романы. Москва, 1968.
جرجي زيدان, تاريخ التمدن الاسلامي , الجزء الاول, القاهرة: دار الهلال 1956
جرجي زيدان, تاريخ التمدن الاسلامي , الجزء الثالث, القاهرة: دار الهلال, 1958
جرجي زيدان, تاريخ التمدن الاسلامي , الجزء الخامس, القاهرة: دار الهلال, 1958

Açar sözlər: ədəbiyyat, musiqi, mədəniyyət, müğənni, xəlifə.

Ключевые слова: литература, музыка, культура, певец, халиф.
Key words: literature, music, culture, singer, caliph.

Резюме

В статье повествуется о музыкальной культуре халифата в эпоху правления династии Омейядов и Аббасидов. Также из пятитомного труда Дж.Зейдана «История мусульманской цивилизации» приводятся интересные сведения о жизни и деятельности дворцовых певцов и музыкантов.

Summary

The article tells about the musical culture during the Umayyad and Abbasid Caliphate period. Also from the five-volume work of J.Zeydan "The history of Muslim civilization" provides interesting information about the life and work of palace singers and musicians.

Rəyçi: prof. V.Cəfər